2023

İLLİK HESABAT

Şəhla Qarayeva Təqaüd Proqramı

www.sgsp.info



SGSP

Shahla Garayeva Scholarship Program

BUGÜN ŞQTP

Şəhla Qarayeva Təqaüd Proqramı 2018-ci ildən bəri Azərbaycandan olan az təminatlı və təhsilə çıxışı məhdud olan qızların təhsil imkanlarının genişləndirilməsi üçün çalışır. Hər il, iki və ya üç aylıq müddət ərzində ərizə qəbulunu açıq elan edərək gənc qızların təqaüd proqramından maliyyə yardımı və mentorluq proqramı şəklində faydalanması üçün şərait yaradır.

2018-ci ildən bəri təqaüdçülərimizin sayı hər il artmağa davam edir. 2018/2019-cu tədris ilində 4 təqaüdlə başlayaraq, 2019/2020-ci ildə bu rəqəmi 6-ya, 2020/2021-ci ildə isə 20-yə qədər sayı artırdıq.

Keçən il 43 tələbəyə təqaüd verərək beşillik fəaliyyətimizdə 2022-ni ən uğurlu il kimi qeyd etsək də, bu il daha bir diqqətəlayiq nailiyyət əldə etdik. Bu il təqaüdün ümumi məbləğini ***800 ABŞ dollarına qədər artıraraq 35 tələbəni*** təqaüdlə mükafatlandıra bildik. Bu bir proqram olaraq ŞQTP-nın davamlı böyüməsində əhəmiyyətli bir irəliləyiş deməkdir.

35 TƏQAÜD



ƏRİZƏ QƏBULU



2023-ci ildə Ərizə forması iki ay müddətinə açıq elan olundu. Bu müddət ərzində bizə ümumilikdə 300 ərizə daxil olub, halbuki 28 ərizəçi (kişi namizədlər, düzgün və ya tam doldurulmamış ərizə formaları) seçim prosesinin ilk mərhələsində diskvalifikasiya edildi (ŞQTP-yə müraciət etmək üçün uyğunluq tələblərindən biri Azərbaycanda yaşayan qız tələbə olmaqdır).

ƏRİZƏ QƏBULU

Ümumilikdə, biz **272 ərizəni** qiymətləndirdik. Ərizəçilərin təqaüd proqramına müraciət etmək məqsədi nümayiş etdirilən ehtiyacdan asılı olaraq dəyişir. Diaqramda göstərildiyi kimi, qızların əksəriyyəti təqaüd proqramına ya təhsillərini davam etdirmək, müxtəlif şəxsi ehtiyaclar ya da fərqli şəxsi inkişaf kurslarından (dil, ixtisasla bağlı və magistratura üçün hazırlıq kursları) yararlanmaq üçün müraciət edirlər.



SEÇİM PROSESİ

Ərizəçilərin seçim prosesi üç mərhələdə aparıldı: 1) İlkin baxış; 2) Tərəfdaşların qiymətləndirməsi; 3) Müsahibə. Seçim mərhələsinin hər bir mərhələsi aşağıda daha ətraflı izah olunub.

1) İlkin baxış

Bu mərhələdə SGSP layihə komandası **272 müraciəti** diqqətlə qiymətləndirdi və onları ehtiyac səviyyələrinə əsasən üç qrupa - ən yüksək, orta və ən aşağı kateqoriyalara ayırdı. Ehtiyacın müəyyənləşdirilməsi müraciətlərdə nümayiş etdirilən sosial-iqtisadi göstəricilərə əsaslanıb. İlkin baxışdan sonra **150 ərizəçi** növbəti mərhələyə keçib.

2) Tərəfdaşların qiymətləndirməsi

SGSP-nin iki sadiq tərəfdarı təqaüdçülərin anonimləşdirilmiş ərizələrindəki qısa cavab esselərinə baxış keçirib aşağıdakı iki meyar əsasında: a) ən yüksək ehtiyac və b) gələcək haqqında məqsədlərin aydınlığı üzrə qiymətləndirmə apardılar. Bu mərhələnin sonunda ŞQTP layihə komandası, müsahibə mərhələsinə keçən **63 finalisti** müəyyənləşdirdi.

3) Müsahibə

ŞQTP ehtiyaca əsaslanan təqaüd proqramı olduğundan, layihə qrupu təqaüd fondunun tələbələrin ehtiyaclarına nə qədər uyğun olduğunu araşdırmaq məqsədi ilə fərdi telefon, “Zoom” və ya “Skype” vasitəsilə müsahibələr apardı. Bu mərhələdə ŞQTP layihə qrupunun məqsədi hər bir finalist ilə daha yaxından tanış olmaq və ərizə formasında olmayan sualları verməkdən ibarət idi. Diqqətli müzakirələr əsasında altı günlük müsahibə prosesinin sonunda ***35 təqaüdçü*** seçildi.

MENTORLUQ PROQRAMI

ŞQTP-ın komandası olaraq mükafat alan qızların böyüməsinə və inkişafına davamlı töhvə verməyə çalışırıq. Mentorluq Proqramı onun effektivliyinin sübutu kimi dayanır və ardıcıl olaraq müsbət nəticələr verir. Hər il biz qadın tələbələrin mentorluq proqramı sayəsində daha çox güc və özünəinam, eləcə də gələcək qərarların qəbulu üçün müsbət təcrübə qazandıqları haqqında fərqli uğur hekayələrini qeydə alırıq.

Fərdi inkişafdan başqa, Mentorluq Proqramı ŞQTP Proqramı ətrafında formalaşan sıx bağlı icma ilə təqaüdçülərin fəal iştirakının təmin edilməsində və daimi əlaqənin saxlanılmasında mühüm rol oynayır. Öz təcrübələrindən əldə etdikləri fikirləri və bilikləri bölüşməyə hazır olan peşəkar mentorların töhfəsi və dəyərli rəhbərliyi proqramın quruluşuna böyük dəyər əlavə edir.

Bu il ***15-ə qədər mükafatçı 6 aylıq mentorluq proqramına*** cəlb olunmuşdur. Bu, təkcə fərdi mentorluğa sadiqliyimizi deyil, həm də ŞQTP icması daxilində istedadlı şəxslər üçün möhkəm və davamlı dəstək sistemi təmin etmək öhdəliyimizi ifadə edir.

Mentorlarımızla tanış olmaq istəyirsinizsə, saytımıza daxil olun (www.sgsp.info)

ƏMƏKDAŞLIQLAR

Bu il işimizin təsirini artırmaq üçün **Azərbaycan Mədəniyyət Cəmiyyəti Şimali Kaliforniya** və **"For Azerbaijan" Fondu** ilə tərəfdaşlığımızı davam etdirdik. Hər iki qeyri-kommersiya təşkilatı bizə təqaüdlər üçün daha çox vəsait toplamağa və təqaüdçülərimiz üçün daha yaxşı proqramlaşdırma həyata keçirməyə kömək edən təşkilati və fandreyzinq dəstəyi verdi. Tərəfdaşlarımıza 2023-cü ilin daha bir uğurlu il olması üçün göstərdikləri vaxt və səylərə görə minnətdarlığımızı bildirmək istərdik!

FOR AZERBAIJAN
LEAVE YOUR MARK

Azerbaijan Cultural Society-Northern California
ACS NC

KRAUDFANDİNQ KAMPANİYASI

ŞQTP Kraudfandİnq Kampanİyası 2023 Azərbaycandan olan gənc qızların təhsilini dəstəkləmək üçün ümumilikdə **16,972 ABŞ dolları** toplamağa imkan verdi. ACSNC (Azerbaijan Cultural Society Northern California - Azərbaycan Mədəniyyət Cəmiyyəti Şimali Kaliforniya) ilə əməkdaşlıq sayəsində biz Kraudfandinq Kampaniyası zamanı ümumilikdə 59 onlayn ianə əldə edilib. Ötən illərdə olduğu kimi bu il biz bir daha Anonim Donordan **11,764 ABŞ dolları** məbləğində ianə aldıq. Bu ianə 2023-cü il üçün ümumi büdcəmizi ***28,736.60 ABŞ dollarına*** çatdırdı. Bunun sayəsində təhsillərini davam etdirməsi üçün **16 tələbəni** təqaüdlə mükafatlandıra bildik.

Bizim birgə səylərimiz bu kampaniyanın hüdudlarından kənara çıxdı, uğurlu əməkdaşlıqlar il boyu davam etdi: "For Azerbaijan" Fondunun Kraudfandİnq Kampaniyasının dəstəyi ilə daha **19 tələbəyə** dəstək ola bildir, və bununla da verilən təqaüdlərin ümumi sayını ***35 təqaüdə*** çatdırdıq. Aşağıdakı qrafik ianələrin keçirilən kampaniyalar və tərəfdaşlıqlar üzrə bölgüsünü göstərir.



MALİYYƏ HESABATI 2023

Gəlir		
Kraudfandinq Kampaniyası (Vebsayt)	$	16,972.00
Anonim Donor - Ianə	$	11,764.60
Cəmi gəlir	**$**	**28,736.60**
Xərclər		
İnzibati xərclər	$	1,004.02
Proqram xərcləri	$	12,470.00
Cəmi xərclər	**$**	**13,474.02**
Ümumi Mənfəət (Zərər)* 2023	**$**	**15,262.58**
İnzibati xərclər/Cəmi gəlir		**3%**
Proqram xərcləri/Cəmi gəlir		**43%**
Ümumi Mənfəət (Zərər)/Cəmi gəlir		**53%**

İnzibati xərclər platforma ödənişlərini (Stripe, Hosting, G-Suite və transfer haqları) əhatə edir. Qeyd etmək vacibdir ki, komanda tərəfindən görülən bütün işlər könüllülük əsasında həyata keçirilir; pul kompensasiyası nəzərdə tutulmur.

Proqram xərclərinə Təqaüdlərin ödənilməsi daxildir.

Ümumi Mənfəət (Zərər) növbəti ilin qaliblərinin təqaüdlərini maliyyələşdirmək üçün ayrılacaqdır.

Gəlir və xərclər 30 dekabr 2023-cü il tarixinədək hesablanır

Bütün bunlar Sizin dəstəyiniz sayəsində!

Təşəkkürlər!